# Habaqquq

*Peyğəmbərin Kitabı*

***Giriş***

*«Habaqquq»* Kitabı miladdan əvvəl VII əsrin axırına – Babillilərin hökmranlıq etdiyi dövrə aiddir.

Bu qəddar xalqın törətdiyi zorakılıqdan narahat olan peyğəmbər Rəbbə sual verir:

«Pis adamlar salehlərin başını yeyəndə
Axı niyə susursan?» (1:13)

Rəbb buna belə cavab verir:

«Budur, məğrurların niyyətləri düzgün deyil,
Amma saleh adam imanı ilə yaşayacaq» (2:4).

Kitabın qalan hissəsi pis adamların dəhşətli aqibətindən xəbər verir və Allahın böyüklüyünü izzətləndirən, Habaqququn güclü imanını bəyan edən şairanə ilahi ilə bitir.

***Kitabın məzmunu***

Habaqququn şikayəti və Rəbbin cavabı 1:1-2:5
Pis adamların aqibəti 2:6-20
Habaqququn duası 3:1-19

1 [1] Habaqquq peyğəmbərə görüntü ilə nazil olan xəbərdarlıq.

### Habaqququn şikayəti

[2] Ya Rəbb, nə vaxta qədər Səni imdada çağıracağam?
Sən isə eşitmirsən.
«Zorakılıq var!» deyə fəryad edirəm,
Lakin qurtarmırsan.
[3] Niyə mənə şər göstərirsən,
Özün də haqsızlığa baxırsan?
Haraya nəzər salsam,
Orada soyğunçuluq və zorakılıq var,
Davaların, çəkişmələrin sonu yoxdur.
[4] Buna görə qayda-qanun qüvvədən düşdü,
Ədalətə üstünlük verilmir.
Çünki pis adamlar
Salehləri dövrəyə alır,
Hökm isə təhrif olunur.

### Rəbbin cavabı

[5] Baxın o biri millətlərə,
Gördüklərinizə tamamilə mat qalacaqsınız.
Sizin vaxtınızda elə işlər görəcəyəm ki,
Sizə danışsaydılar, inanmazdınız.
[6] Budur, Mən amansız və qəddar milləti –
Dünyanın dörd tərəfinə yüyürən,
Başqalarının torpaqlarını zəbt edən
Xaldeyliləri sizə qarşı qaldırıram.
[7] Onlar dəhşətli və qorxuncdur,
Qürurlu və özbaşınadır.
[8] Atları bəbirdən çevik,
Özləri isə ac qurddan daha azğındır,
Süvariləri yeri deşərək uzaqdan gəlir,
Şikarını yeməyə cuman qartal kimi şığıyır.
[9] Zorakılıq üçün onların hamısı gəlir,
Orduları səhradan əsən yel kimi irəliləyir,
Əsirləri qum kimi yığır.
[10] Padşahlara rişxənd edirlər,
Hökmdarlara gülürlər,
Hər qalalı şəhərə lağ edirlər,
Divarların qarşısında
Torpaqdan təpə qurub onu ələ keçirirlər.
[11] Onlar yel kimi keçib-gedir.
Bu günahlı adamların gücləri
Onların allahıdır.

### Habaqquq yenə də Rəbbə şikayət edir

[12] Əzəldən bəri var olan Sən deyilsənmi?
Ya Rəbb, Allahım, Müqəddəs Olanım,
Biz ölməyəcəyik.
Ya Rəbb, Sən Xaldeylilərə izin verdin ki,
Bizi məhkum etsinlər.
Ey Qayamız, bizi cəzalandırma hökmünü onlara verdin.
[13] Sənin gözlərin çox təmizdir,
Şəri görən gözün yoxdur,
Pis əməllərə dözə bilmirsən.
Bəs xəyanətkarlara necə baxa bilirsən?
Pis adamlar salehlərin başını yeyəndə
Axı niyə susursan?
[14] Sən insanları sanki dəniz balıqlarına,
Başçıları olmayan sürünən canlılara çevirdin.
[15] Xaldeylilər onların hamısını tilovla çəkib aparır,
Torla çıxarır, ağlarına[1] yığır,
Buna sevinib-şadlanır.
[16] Buna görə torları üçün qurban kəsirlər,

---

***1:5*** *– Həv. 13:40-41*

***1:6*** *– 2Pad. 24:2*

[1] **1:15** *Ağ* – torun bir növü.

Ağları üçün buxur yandırırlar,
Axı onlar bu torlarla
Bol və ləzzətli yemək əldə edir.
17 Torlarını durmadan boşaltmağa,
Millətləri amansızcasına qırmağa
Onlar davam edəcəklərmi?

2 1 Keşiyimdə duracağam,
Gözətçi qülləsində dayanacağam.
Baxım Rəbb mənə nə deyəcək,
Görüm şikayətlərimə nə cavab verəcək?

### *Rəbbin cavabı*

2 Rəbb mənə belə cavab verdi:
«Görüntünü yaz, lövhələrdə açıqla ki,
Qoy hər kəs tez onu oxuya bilsin.
3 Çünki bu görüntü müəyyən vaxt
üçündür,
Başa çatmağa tələsir və yalan deyil.
Sanki gecikir,
Amma gözləyin, çünki hökmən gələcək,
gecikməyəcək.
4 Budur, məğrurların niyyətləri düzgün
deyil,
Amma saleh adam imanı ilə yaşayacaq.

5 Şərab aldadıcıdır,
Təkəbbürlü adamlar sakit durmaz,
Ölülər diyarı kimi acgözdür,
Onlar ölüm kimi heç doymaz.
Buna görə də bütün millətləri zəbt edib,
Bütün xalqları əsir edər.

### *Xaldeylilərin sonrakı aqibəti*

6 Əsir alınanlar onları
Alçaldıb məsxərəyə qoyacaq,
İstehzalı müəmmalarla
"Özünə aid olmayanı ələ keçirənin,
Xərac alıb varlananın vay halına!
Bu nə vaxta qədər davam edəcək?"
deyəcəklər.
7 Sizə xərac verənlər bir gün
Qəflətən qiyam etməzmi?
Oyanıb sizi qorxutmazmı?
Budur, o vaxt onlar üçün siz
Talan malı kimi olacaqsınız.
8 Bir çox millətləri soyduğunuz,
Qan tökdüyünüz,
Ölkələrə, şəhərlərə və
Orada yaşayan hər kəsə zorakılıq
etdiyiniz üçün
Xalqlardan sağ qalanlar sizi də soyacaq.

9 Vay halına evini haram qazancla
dolduranın,
Fəlakətdən qaçmaq üçün yuvasını
Yüksək yerdə quranın!
10 Siz çox xalqları qırmaqla
Öz nəslinizi rüsvay etdiniz,
Öz həyatınızı məhv etdiniz!
11 Belə ki divar daşları bu barədə fəryad
qoparacaq,
Taxta tirlər əks-səda verəcək!

12 Qan töküb şəhər tikənin,
Haqsızlıq edib kənd quranın
Vay halına!
13 Xalqların çəkdiyi zəhmətin zay olması,
Həqiqətən, ümmətlərin boş yerə özlərini
yorması
Ordular Rəbbinin işi deyilmi?
14 Sular dənizi necə doldurursa,
Dünya da Rəbbin izzətinin biliyi ilə elə
dolacaq.

15 Qonşuların çılpaq bədənlərinə tamaşa
etmək üçün
Şərab içirdib sərxoş edənlərin,
İçkiyə zəhrimar qatan sizlərin vay halına!
16 Şan-şöhrətiniz xəcalətə çevriləcək!
Siz də içib soyunun!
Rəbb sizə sağ əli ilə
Cəza camını dolduraraq içirəcək,
Hörmətinizin yerini rüsvayçılıq tutacaq.
17 Livanda etdiyiniz zorakılıq öz başınıza
gələcək.
Qırdığınız heyvanlar sizi dəhşətə
gətirəcək.
Çünki siz qan tökdünüz,
Ölkələrə, şəhərlərə və
Orada yaşayan hər kəsə zorakılıq etdiniz.

18 Sənətkarın oyduğu yonma ya tökmə
bütün
Yalan öyrətməkdən başqa nə xeyri var?
Bütü düzəldən sənətkar öz işinə güvənir,
Amma onun düzəltdiyi
Dilsiz bütdən başqa nədir ki?
19 Taxtaya "Oyan!", dilsiz daşa "Qalx!"
Deyən insanın vay halına!
Büt yol göstərə bilərmi?
Budur o, qızılla, gümüşlə örtülmüşdür,
Fəqət içində həyat nəfəsi yoxdur.

---

***2:3-4** – Rom. 1:17; Qal. 3:11; İbr. 10:37-38*

***2:14** – Yeş. 11:9*

[20] Lakin Rəbb müqəddəs mə'bədindədir.
Qoy Onun önündə bütün dünya sussun!»

### *Habaqququn duası*

3 [1] Peyğəmbər Habaqququn duası,
Şiqqayonlar[2] kökü üstündə.
[2] Ya Rəbb, Sənin şöhrətin haqqında eşitdim,
Ya Rəbb, gördüyün işlərə görə qorxdum.
Bizim vaxtımızda da eyni işlər gör,
Bizim dövrümüzdə bunları bildir!
Qəzəblənəndə mərhəmətini xatırla!

[3] Allah Temandan,
Müqəddəs Olan Paran dağından gəldi. Sela[3]
Ehtişamı göyü bürüdü,
Həmd-sənaları yer üzünü tutdu.
[4] Cah-cəlalı günəş tək parıldayır,
Əlləri nur saçır,
Qüdrətinin sirri əlindədir.
[5] Onun önündə vəba,
Arxasınca ölümcül xəstəlik gedir.
[6] O durdu, yeri tərpətdi,
Baxdı, millətləri sarsıtdı,
Qədim dağlar dağıldı,
Əzəldən qalan təpələr ona baş əydi.
Allahın yolu əbədidir.
[7] Mən baxıb gördüm ki,
Kuşan çadırları çarəsizlik içindədir,
Midyan çadırlarının pərdələri lərzəyə gəldi.

[8] Ya Rəbb, məgər Sən
Çaylara qarşı qəzəblənmisən?
Acığın irmaqlara qarşıdırmı?
Yoxsa dənizə qarşı hiddətləndin ki,
Atlarına, müzəffər döyüş arabalarına mindin?
[9] Yayını açdın,
Oxdanını oxlarla doldurdun, Sela.
Yer üzünü çaylarla yardın.
[10] Səni görüb dağlar lərzəyə gəldi,
Sellər hər yanı süpürüb axdı,
Dərinliklər gurladı, dalğalar qalxdı.

[11] Uçan oxlarının qığılcımından,
Vıyıldayan nizənin parıltısından
Günəş və ay yerlərində durdu.
[12] Yer üzündə qəzəb içində gəzdin,
Millətləri hiddətlə tapdaladın.
[13] Sən Öz xalqının qurtulması üçün,
Məsh etdiyin millətin xilas olması üçün çıxdın,
Şər nəslin başçısını əzdin,
Təpədən dırnağa qədər onu soydun, Sela.
[14] Cəngavərləri fırtına tək
Bizi dağıtmağa gələndə
Onların başını öz nizələri ilə deşdin.
Onlar gizlənən zavallıları
Məhv edənlər kimi sevinərdi.
[15] Sən Öz atlarınla dənizi tapdaladın,
Coşğun suları köpüklətdin.

[16] Eşitdim, varlığım lərzəyə gəldi,
Səsindən dodaqlarım əsdi.
Sanki sümüklərim əridi,
Dizlərim titrədi.
Amma bizə hücum edən xalqın
Fəlakətə düşdüyü günü səbirlə gözləyəcəyəm.
[17] Əncir ağacı tumurcuqlanmasa da,
Meynələr bar gətirməsə də,
Zeytun ağaclarına çəkdiyim zəhmət boşa çıxsa da,
Tarlalar məhsul yetişdirməsə də,
Qoyun-keçi ağıllarda,
Mal-qara tövlələrdə yox olsa da,
[18] Mən yenə Rəbdə sevinc tapacağam.
Xilasımın Allahı ilə şadlıqdan coşacağam!

[19] Xudavənd Rəbb mənim qüvvətimdir,
Ayaqlarımı maral ayaqları kimi çevik edir,
Məni zirvələrdə gəzdirir.

Musiqi rəhbəri üçün: simli alətlərin müşayiəti ilə.

---

[2] **3:1** *Şiqqayon* – fərz edilir ki, bu, musiqi terminidir.
[3] **3:3** *Sela* – fərz edilir ki, bu bir musiqi terminidir.

***3:19*** *– 2Şam. 22:34; Zəb. 18:33*